# Xalqımızın köklü maraqlarının xidmətində



**Yeni Azərbaycan Partiyası Respublikamızda yeganə partiyadır ki, tarixi zərurətdən yaranmışdır. 1991-ci ildə dövlət müstəqilliyini qazandıqdan sonra Azərbaycan böyük faciələrlə üzləşmişdi. Səriştəsiz nə naşı rəhbərlərin fəaliyyəti nəticəsində dövlətçiliyimizə ağır zərbələr vurulmuşdu. Hakimiyyət uğrunda didişmələr, şəxsi və qrup maraqlarının dövlət mənafeyindən üstün tutulması daxili ictimai-siyasi sabitliyin pozulmasına, qanunsuz silahlı dəstələrin özbaşınalığına gətirib çıxarmışdı. İnsan haqlarının tapdanması adi hal almışdı. Uzun illər ərzində yaradılmış iqtisadi potensial amansızcasına talan edilir, əhalinin yaşayış səviyyəsi günbəgün pisləşirdi.**

Azərbaycanın bir sıra dövlətlər, o cümlədən, qonşu ölkələr ilə münasibətləri korlanmış və respublika beynəlxalq aləmdə təklənmişdi. Cəmiyyət və dövlət həyatının bütün sahələrini bürümüş sistemli böhran nəticəsində Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağın ətrafındakı rayonları da bir-birinin ardınca işğal edirdilər. Cəmiyyətdə ümidsizlik əhval-ruhiyyəsi hökm sürürdü. Məhz belə bir faciəli vəziyyətdə xalqı təlaşdan çıxarmağa, onun sabaha inamını qaytarmağa qadir olan mütəşəkkil siyasi qüvvənin, yeni partiyanın yaranması tarixin tələbi idi. Belə bir partiya 1992-ci il noyabrın 21-də Naxçıvana rəhbərlik edən ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında yarandı və fəaliyyətə başladı.

Yeni Azərbaycan Partiyası ilk gündən sübut etdi ki, onun təməlində xalqın həqiqi mənafeləri dayanır. O zaman partiyamızın ölkədəki çoxsaylı digər partiyalardan fərqi bundan ibarət idi ki, o, siyasətdən bixəbər olanları cəmiyyətə böyük siyasətçilər kimi sırımaq niyyəti ilə deyil, xalqın sağlam qüvvələrini birləşdirmək, ölkəni ağır vəziyyətdən çıxarmaq məqsədi ilə yaradılmışdı.

Yeni Azərbaycan Partiyasının yaranmasının tarixi əhəmiyyətini şərtləndirən əsas amillərdən biri ondan ibarətdir ki, bu partiyaya zəmanəmizin böyük dövlət və siyasi xadimi Heydər Əliyev rəhbərlik edirdi. Hələ 1981–1992-ci illərdə cəmiyyətdə belə bir fikir formalaşmışdı ki, ölkəni və xalqı xilas etməyə qadir partiyanı yalnız Heydər Əliyev yarada bilər. Moskvadan Vətənə döndəndən sonra respublikanın o vaxtkı rəhbərləri tərəfindən təqiblərə, böhtanlara, düşmənçilik münasibətinə məruz qalmasına baxmayaraq, Heydər Əliyevin siması xalqın yaddaşında xilaskar və qurucu lider kimi həkk olunmuşdu.

O vaxt görüşüb söhbət etdiyim insanlarda belə bir inam var idi ki, Heydər Əliyev Allah adamıdır və mistik qüvvəyə malikdir. Tanrı onu Azərbaycana xilaskar kimi göndərib. Hamı inanırdı ki, Heydər Əliyevi hakimiyyətə gətirmək məqsədi ilə yaranan Yeni Azərbaycan Partiyası bu hədəfə hökmən çatacaq. Çünki bu partiyanı yaradan böyük şəxsiyyətə uzun illər Vətəni və xalqı üçün gördüyü nəhəng və nəcib əməllərdən yaranmış ümumxalq məhəbbəti, sevgisi və inam vardı.

Heydər Əliyevdən söz düşəndə, adətən, onun fenomenal keyfiyyətləri ilə yanaşı, tükənməz enerjiyə malik olması da heyranlıqla qeyd edilir. Azərbaycan Heydər Əliyevin məqsədyönlü siyasəti nəticəsində tərəqqi tapmış, dünyanın inkişaf etmiş dövlətləri sırasında layiqli yerini tutmuşdur. Ümidvarıq və inanırıq ki, işıqlı sabahlarımız, daha xoşbəxt günlərimiz hələ qabaqdadır. Çünki azad cəmiyyətimizin, gələcəyimizə inamın təməlini bənzərsiz idarəçi, uzaqgörən siyasətçi ulu öndər Heydər Əliyev qoyub.

Ötən 30 ildə Yeni Azərbaycan Partiyası böyük və uğurlu bir inkişaf yolu keçmişdir. Ölkənin ictimai-siyasi həyatında möhkəm mövqe tutan partiyamız iqtisadi durçəlişin və tərəqqinin davam etdirilməsi, əhalinin rifah halının dönmədən yaxşılaşdırılması, respublikada sabitliyin, əmin-amanlığın qorunub saxlanılması üçün görülən tədbirlərdə fəal iştirak etmişdir. Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən quruculuq işlərinə partiya dəyərli töhfələr vermişdir.

Həmin dövr partiyanın lideri Heydər Əliyevin xilaskarlıq və quruculuq missiyasının əsasını təşkil etmişdir. İqtisadi, siyasi, hüquqi islahatların aparılmasında, demokratikləşdirmə prosesində, insan hüquqlarının və azadlıqlarının təmin edilməsində, əhalinin güzəranının yaxşılaşdırılmasında sanballı addımlar atılmışdır. O illərdə Azərbaycanın dünya birliyinə inteqrasiyasında da böyük nailiyyətlər qazanılmış, müstəqil dövlətimiz Avropa Şurası kimi nüfuzlu beynəlxalq təşkilatın tamhüquqlu üzvü olmuşdur.

Partiyamızın məqsəd və məramının Azərbaycan xalqının mənafelərinin qorunmasına, respublikamızın ardıcıl inkişafına yönəlməsinin nəticəsidir ki, 1995-ci ildən bəri ölkədə keçirilmiş bütün parlament seçkilərində Yeni Azərbaycan Partiyasının üzvləri böyük uğurlar qazanmışlar. Partiyamızın nümayəndələri parlamentdə yerlərin əksəriyyətini əldə etmişlər. Bu gün də Yeni Azərbaycan Partiyası Milli Məclisdə hakim partiya mövqeyini qoruyub saxlayır.

Ötən dövrdə parlament ölkəmizdə hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu, bazar iqtisadiyyatı prinsiplərinin bərqərar edilməsi, Azərbaycanın dünya birliyinə inteqrasiyası, bu məqsədlə cəmiyyət və dövlət həyatının bütün sahələrində köklü islahatların həyata keçirilməsi üçün hüquqi bazanın yaradılması və təkmilləşdirilməsi vəzifəsini layiqincə yerinə yetirmişdir. Qanunvericilik fəaliyyətində qazanılmış nailiyyətlərdə Yeni Azərbaycan Partiyasını təmsil edən deputatların xüsusi yeri var. Qanun yaradıcılığı ilə yanaşı, parlament xalqımızın haqq səsinin beynəlxalq ictimaiyyətə çatdırılmasına da öz töhfəsini vermişdir. Deputatlarımız erməni şovinizminə qarşı dünya miqyasında aparılan mübarizədə böyük xidmətlər göstərmişlər.

Ötən 30 ildə Yeni Azərbaycan Partiyası böyük təşkilatı-siyasi iş aparmışdır. Partiyanın strukturunun təkmilləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi, yerli özəklərin gücləndirilməsi respublikanın ictimai-siyasi həyatında cərəyan edən proseslərə, iqtisadi və sosial inkişafa real təkan vermiş, Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi ilə bağlı mürəkkəb vəzifələrin həllinə partiya üzvlərinin və bütövlükdə, xalqımızın səfərbər edilməsinə kömək göstərmişdir.

Yeni Azərbaycan Partiyasının fəaliyyətində varislik ənənələri möhkəm yer tutur, partiyanın yaradıcıları ilə gənc partiya üzvlərinin fəaliyyət birliyi təmin olunur, qazanılmış təcrübədən səmərəli istifadə edilir. Qətiyyətlə demək olar ki, Yeni Azərbaycan Partiyası siyasətçilərin yeni nəslinin yetişdirilməsi məktəbinə çevrilmişdir. Partiya sıralarında onlarca gənc perspektivli siyasətçi püxtələşmişdir.

Partiyaya son 20 ildə ulu öndər Heydər Əliyevin ən sadiq davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Qafqazın ən qüdrətli dövlətinə çevrilmişdir. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ilin payızında Qarabağda aparılmış zəfər savaşı isə özümüz və ətraf aləm barəsində təsəvvürümüzü kökündən dəyişdirmiş, xalqı həqarət vəziyyətindən çıxarmış, bizi öz gözmüzdə ucaltmışdır. Bu müharibə, sözün həqiqi mənasında, Vətən müharibəsinə çevrilmiş, xalqımızı daha sıx birləşdirmiş, vətənimizi, milli və mənəvi dəyərlərimizi müdafiə etmək əzmimizi və iradəmizi nümayiş etdirmişdir.

Prezident İlham Əliyev bu qələbə ilə nəinki ulu öndər Heydər Əliyevin ona vəsiyyət etdiyi dövlət ləyaqətini və mənəvi dəyərləri qoruyub saxlamış, həm də Azərbaycan vətəndaşlarının şüurunda onları daha da inkişaf etdirmişdir. Zəfər savaşının gedişində atılmış hər bir addım, görülmüş hər bir tədbir Ali Baş Komandan tərəfindən dəqiq ölçülüb-biçilmiş və həyata keçirilmişdir. Döyüş əməliyyatlarına ölkəmiz üçün maksimum sərfəli olan şərtlər əsasında son qoyulması da möhtərəm Prezidentimizin xüsusi siyasi duyumunun və dərin zəkasının, ölkəmizin hər bir vətəndaşına qayğıkeş münasibətinin nəticəsi olmuşdur.

Aradan iki il keçməsinə baxmayaraq biz hələ də böyük Qələbənin təsiri altındayıq, döyüş təcrübəsi və təchizatı ilə bir sıra inkişaf etmiş ölkələrin hərbi qurumlarının araşdırma mözusuna çevrilmiş ordumuzla fəxr edirik.

Bu gün biz qürur duyuruq ki, ölkəmizin və xalqımızın bütün möhtəşəm uğurlarında Yeni Azərbaycan Partiyası həmişə Prezident İlham Əliyevin yanında olmuşdur. Artıq 30 ildir ki, Yeni Azərbaycan Partiyası ölkəmizin aparıcı siyasi qüvvəsi olaraq qarşısında dayanan vəzifələri layiqincə yerinə yetirir. Partiyamız bundan sonra da xalqımızın köklü maraqlarının xidmətində olacaq.

**Arif RƏHİMZADƏ,**
**YAP Ağsaqqallar Şurasının sədri**